Ardahan Universiteti
Fən Bilimləri İnstitutu
Universiteti
Kimyaçı



**11)** Yrd. Dos.Dr. Rafiq Qurbanov
Biləcik: Şeyx Ədəbalı
Fən Ədəbiyyat Fakultsi,
Biokimya



**12)** Ellada Məmmədova
İstanbul Yıldız
Texnik Universiteti
Fən Ədəbiyyat
Fakultsi, Kimya

**13)** Prof. Dr. Arif Eynullayev
Van "100-cü il"
Universiteti
Fən Fakultəsi
Kimya
Bölümü

## *5. Humanitar elm sahəsində türkiyədə çalışmış və çalışan azərbaycanlı alimlər*

### *1. Tarıxçi alimlər*



**1)** Prof. Dr. Aygün Attar
Giresun
Universiteti
Keçmiş Rektoru,
***Tarixçi***



**2)** Prof.Dr. Həsənbala Sadıqov
Van: Yüzüncü il
Universiteti
***Tarixçi***



**3)** Prof.Dr. Toğrul İsmayılov
TOBB İktisadi və
Texnoloji Universiteti
***Tarix-İqtisad***



**4)** Doç. Dr. Cavid Qasımov
Van Yüzüncü il Universiteti
Tarix bölümü
***Tarixçi***



**5)** Dos. Dr. Vəfa Qurban
"9 Eylül" Universiteti
***Tarixçi***



**6 )** Dos. Dr. Başir Mustafayev
Siirt Universiteti
***Tarix bölümü***



**7)** Dos. Dr.Elçin
Nəciyev
Muş Alparslan
Universiteti
***Tarixçi***



**8)** Dos. Dr. Sevil
Piriyeva
İstanbul Mədəniyyət
Universiteti
***Tarixçi***



**9)** Dos.Dr. Qiyas
Şükürov
Bozok Unıversıtetı
Tarix Bölümü



**10)** Dos.Dr. Namiq
Musalı
Kastamonu Unıversıtetı
Fən Ədəbiyyat Fakultəsi
Tarix bölümü



**11 )** Dos. Dr. Kamal
İbrahimzadə
Qaziosmanpaşa
Universiteti
Fən-Ədəbiyyat Fakultəsi
***Sənət Tarixi***



**12 )** Dos. Dr. Anar
Əzizsoy
Karabük Universiteti
Ədəbiyyat Fakultəsi
***Sənət Tarixi***
Bölümü



**12 )** Dos. Dr. Yeganə
Çağlayan
Muş: Alp Arslan
Universiteti
Sosyal Bilimlər Eytimi
***Tarixçi***



**13 )** Müşviq
Əlizadə
İstanbul
Universiteti
***Tarix*** bölümü

## 2. Filosoflar



**1 )** Prof. Dr. Babək
Qurbanov
Qaziantep Universiteti
Türk Musiqisi
Dövlət Konservatoriyası
***Musiqi estetikası-Fəlsəfə***



**2 )** Prof. Dr. Nigar
Əsgərova
Erciyes Universiteti
Gözəl Sənətlər Fakultəsi
Musiqi bölümü
***Fəlsəfə - Musiqi***



**3)** Dos.Dr. Yalçın
Abdulla.
Qaziantep Universiteti
TMDK
***Fəlsəfə***



**4 )** Elşad Abdullayev
Orta Doğu Texnik
Universiteti (ODTU)
Fəlsəfə bölümü

## 3. Şərqşünas, Arxeoloq, Sosyoloq



**1 )** Dos. Dr. Rza
Xəlilov
Ərzurum
Atatürk Universiteti
***Ərəbşünas***



**2 )** Prof. Dr. Kazım
Abdullayev
Memar Sinan Universiteti
Gözəl sənətlər fakultəsi
***Arxeoloq***



**3)** Prof.Dr. Əbülfəz
Süleymanov
Üsküdar Universiteti
İnsan və Cəmiyyət elmləri
Fakultəsi, Sosioloji bölümü
***sosyoloq***

## *4. Coğrafiyaşünas müəllimlər*



**1 )** Səbinə Şəkiliyeva
Van Yüzüncü il
Universiteti
Coğrafiya
bölümü



**2)** İlkin Sadıqov
Ankara Universiteti
DTCF Coğrafiya
bölümü

## *5. Dini elm sahəsi üzrə pedaqoqlar*



**1 )** Prof. Dr. Nəbi
Mehdiyev
Trakya universiteei
Ədəbiyat fakultəsi
İnsan və Cəmiyyət
Elmləri bölümü
Din Fəlsəfəsi



**2 )** Dos.Dr. Əbdüləli
Əliyev
Bozok Unıversıtetı
İlahiyət Fakultəsi
Fəlsəfə və Din Elmi



**3 )** Dos.Dr. Rəşadət
Əhmədov
Ardahan Universiteti
İlahiyyət Fakultəsi



**4 )** Dos.Dr. Rafiz
Manafov
Muş Alparslan Universiteti
Fəlsəfə və Din bilimləri
Bölümü, Din fəlsəfəsi



**5 )** Dos.Dr. Eldar
Həsənoğlu
İzmir: Katib Çələbi
Universiteti
İslami Elmlər Fakultəsi
Dinlər tarixi bölümü



**6)** Yar.Dos.Dr. İslam
Musayev
Hakkari Universiteti
İlahiyət fakultəsi
Fəlsəfə və Din



**7)** Yar. Dos. Dr. Şahin Seyfulla oğlu Əhmədov
Iğdır Universiteti
İlahiyat fakultəsi
***İlahiyatçı***



**8)** Yar.Dos.Dr. Ramin Sadıqov
Hakkari Universiteti
İlahiyət fakultəsi
İslam Tarixi



**9)** Dr. İslam Musayev
Hakkari Universiteti
İlahiyyət Fakultəsi
Fəlsəfə və Din elmləri Bölümü



**10)** Azər Abbasov
Mərmərə Universiteti
İlahiyyət Fakultəsi
İslam Hüququ

**11)** Yar. Dos. Dr. Samirə Həsənova
Yaxın Doğu Universiteti
İlahiyyət Fakultəsi
İslam Hüququ

## *6. Hüquq elminin nümayəndələri*



**1 )** Dos.Dr. Cavid Abdullayev
Ankara Unıversıtetı
Hüquq Fakultəsi
***Hüquqşünas***



**2 )** Yrd. Dos. Dr. Nazim Ziyadov
Antalya Bilim Universiteti
Hüquq və Kriminologiya Fakultəsi ***Hüquqşünas***



**3 )** Yar.Dos.Dr. Emin Hüseynoğlu
Ankara Universiteti
Hüquq Fakultəsi



**4 )** Kəmalə Aslanova
Aydın Universiteti
Hüquq fakultəsi



**5 )** Etiqad Xəlilov
İstanbul Universiteti
Hüquq fakultəsi



**6 )** Samir İsmayılov
Qazi Universiteti
Hüquq fakultəsi



**7 )** Əli İmamverdi
Qaziantep Universiteti
Hüquq fakultəsi

## *7. Türkiyədə çalışan Beynəlxalq münasibətlər elm sahəsinin nümayəndələri*



**1)** Prof.Dr. Xaləddin
İbrahimli
Avrasya Universiteti
Beynəlxalq Münasibətlər
bölüm başqanı



**2 )** Dos.Dr. Əli
Əsgərov
Karabük Universiteti
Siyasət Elmi və İctimai
İdarə etmə Fakultəsi
Beynəlxalq Əlaqələr
Bölümü



**3 )** Dos.Dr. Vqar İmanbəyli
İstanbul Şəhər Universiteti
İnsan və Cəmiyyət Elmləri
Fakultəsi, Siyasət Elmi və
Beynəlxalq Münasibətlər
Bölümü. /Tarixçi



**4 )** Dr. Lamiyə Məmmədova
Nişandaşı Universiteti
İqtisadi, İdari və Sosial
Elmlər Fakultəsi
Beynəlxalq Münasibətlər
Bölümü. / Hüquqçu



**5 )** Emil Vəliyev
Ankara Universiteti
Beynəlxalq Münasibətlər



**6 )** Toğrul Vəli Kamiloğlu
Ankara Universiteti
Sosial Elmlər
İnstitutu
Avropa Birliyi
Beynəlxalq Münasibətlər



**7 )** Asif Kərimov
BA-İstanbul
Universiteti
İqtisad Fakultəsi
Beynəlxalq
Münasibətlər



**8 )** Ramil Zeynalsoy
Doğu Ağdəniz
Universiteti
Beynəlxalq
Münasibətlər



**9 )**Natiq Abbasov
Uludağ Universiteti
Siyasi Elmlər
Fakultəsi
Beynəlxalq
Münasibətlər



**10 )** Kamil Ağacan
Ankara Universiteti
Sosial Elmlər
İnstitutu
Beynəlxalq
Münasibətlər



**11 )** Ceyhun Şirinov
Mərmərə Universiteti
Sosial Elmlər
İnstitutu
Beynəlxalq
İqtisad



**12 )** Elnur Mikayılov
Konya: Səlcuk
Universiteti
Beynəlxalq
Münasibətlər



**13 )** Rəşad Şirinov
Boğaziçi Universiteti
Beynəlxalq
Münasibətlər



**14 )** Muxtar Hacızadə
İstanbul Universiteti
Beynəlxalq
Münasibətlər



**15 )** Rəhilə Mehdiyeva
Mərmərə Univesiteti
Siyasi Elmlər
Fakultəsi
Beynəlxalq Münasibətlər
bölümü



**16 )** Elnur Soltan
Orta Doğu Texnık
Unıversıtetı (ODTU)
Beynəlxalq
Münasibətlər



**17 )** Samir Quliyev
Ankra Universiteti
Politalogiya fakultəsi
Beynəlxalq Münasibətlər

## *8.Psixologiya elm sahəsinin nümayəndələri*



**1)** Prof.Dr. Elmar Hüseynov
Avrasiya Universiteti
Psixologiya bölümü



**2)** Doç. Dr. Məhərrəm Əliyev
Avrasiya Universiteti
Psixologiya bölümü



**3)** Dos. Dr. Ramin Əliyev
Hasan Kalyonçu
Universiteti Psixoloq



**4)** Dos. Dr. Şanay
Quliyeva
Kastamonu Universiteti
Psixolojik Danışmanlıq
Rəhbərlik Bölümü



**5)** Yrd. Dos. Dr. Könül
Məmmədova
Yaxın Doğu Universiteti
Eytim Fakultəsi
Psixoloq



**6)** Bəhram
Məmmədəliyev
Ankara Universiteti
Təhsil Elmləri
Fakultəsinin
Rəhbərlik və
Psixolojik
Məsləhətçilik bölümü

**7)** Prof.Dr. Əhməd
Rüstəmli
Uluslararsı Kıbrıs
Universiteti
Psixoloji bölümü

## *9. İqtisad, siyasət, idarəetmə, biznes elm sahəsinin mütəxəssisləri*



**1)** Prof.Dr. Qeybulla Ramazanoğlu Qeybullayev
Sparta: Süleyman Dəmirəl Universiteti, Türkiyə,
Baş Nazirin müşaviri



**2)** Prof.Dr. Fərhad Hüseyn
Bilkənd
Universiteti



**3)** Prof.Dr. Mübariz Həsənov
Okan Universiteti
İqtisadiyyat və Maliyə bölümü



**4)** Dos. Dr.Polad Əliyev
Iğdır Universiteti
İqtisadi İdari Elmlər Fakultəsi, mühasibə



**5)** Doç. Dr. Naib Ələkbərov
Uşak Universiteti
İqtisadcı



**6)** Nəsimi Hüseynov
Hacəttəpə Universiteti
İqtisad bölümü



**7)** Zenfira Nəsirova
Mərmərə Universiteti
İqtisadiyyat bölümü



**8)** Esmira Abiyeva
Yakın Doğu Üniversiteti
İqtisad bölümü



**9)** Rəhman Səfərov
“9 Eylül Universiteti”
Pedaqoji Elmlər İnstitutu
İqtisadi və Sosyal Coğrafiya bölümü



**10)** Yrd. Dos. Fərid Hüseynov
İstanbul Aydın Universiteti
İdarəetmə Bölümü



**11)** Rövşən Əmircanov
Konya Səlcuk Universiteti
Dövlət İdarəetmə Fakultəsi



**12)** Cəbrayıl Vəliyev
Mərmərə Universiteti
İqtisadi və İdarəetmə Fakultəsi



**13)** Elnur Mikayılov
Səlcuk Universiteti
İqtisad və İdarəetmə
Fakultəsi



**14)** Asif Qurbanov
"9 Eylül Universiteti"
İqtisadiyat fakultəsi
İstehsalın idarəetmə
Bölümü



**15)** Kamal Süleymanov
Anadolu Universiteti
İqtisadi və İdari
bilimlər fakultəsi



**16)** Vüqar Abdulla
Səlcuk Universiteti
İqtisadi və İdari
Elimlər Fakultəsi
Biznesin İdarə
Olunması bölümü



**17)** Leyla Rüstəmova
Qazi Universiteti
İqtisadi və İdari
Elimlər Fakultəsi
İdarəetmə
Bölümü



**18)** Anar Əliyev
Qazi Universiteti
İqtisadi və İdari
Elimlər Fakultəsi (İİBF),
İqtisadiyyat
Bölümü



**19)** Fəxri Ağayev
Mərmərə Universiteti
İqtisadiyyat və
İdarəetmə Fakultəsi



**20)** Anar Əliyev
Atatürk Universiteti
İqtisadiyyat və
İdarəetmə Elmləri
Fakultəsi,
İqtisadiyyat bölümü



**21)** İqbal Ağayev
Qazi Universiteti
İqtisadiyyat və
İdarəetmə Fakultəsi
Əmək İqtisadiyyatı
və sənaye əlaqələri
Bölümü



**22)** Səbinə Məmmədova
İstanbul Universiteti
Siyasi elmlər fakultəsi
Dövlət İdarəetmə
Bölümü



**23)** Abbas İbrahimov
İstanbul Texnik
Universiteti
İdarəetmə
Bölümü



**24)** Araz Aslanlı
Ankara Universiteti
İctimai Elmlər
İnstitutu
İdarəetmə Bölümü



**25)** Məlahət Hacıyeva
İstanbul Universiteti
Siyasət Elmləri
Fakultəsi İctimai
İdarəetmə bölümü



**26)** Yusif Hacılı
Ortadoğu Texnik
Universiteti (ODTU)
İqtisadiyyatı İdarəetmə
Elmləri Fakultəsi - İİBF
Siyasi elm və
İctimai İdariətmə bölümü



**27)** Sərxan Əliyev
Ortadoğu Texnik
Universiteti (ODTU)
İqtisadiyyatı İdarəetmə
Elmləri Fakultəsi İİBF,
İctimai İdarətmə
bölümü



**28)** Adıl Haqverdıyev
Orta Doğu Texnik
İqtisadiyyat və
İdarəetmə Fakultəsi



**29)** Müseyib Tağıyev
Erciyes Universiteti
İqtisadiyyat və İdarəetmə
Fakultəsi Maliyə bölümü



**30)** Xaqani Xudaverdiyev
Trakiya Universiteti
İqtisadiyyat və İdarəetmə
Menecment Bölümü



**31)** Amaliya İmanova
İstanbul Universiteti
İqtisad Fakultəsi
Maliyə bölümü



**32)** Vilayət Səfiyev
Mərmərə Universiteti
İqtisadi və İdarəetmə
Fakultəsi,
Biznes bölümü



**33)** Ülviyyə Poladova
İstanbul Universiteti
İqtisadiyyat İnstitutu
Biznesin İdarə
olunması üzrə MBA
Biznes bölümü



**34)** Səkinə Kərimova
İstanbul Universiteti
Siyasət Elmləri
Biznes



**35)** Mahmud Qasımov
Qazi Universiteti
İqtisadi İdari Bilimləri
Fakultəsi
Biznes



**36)** Orxan Musazadə
İstanbul Universiteti
Biznes bölümü
Fakultəsi (İİBF)



**37)** Fərhad Tarım
Qaziantep Universiteti
Biznes bölümü



**38)** Elşad Məmmədov
Ankara Universiteti
Sosyal Bilimlər Fakultəsi
Çalışma İqtisadiyyatı



**39)** Anar Xəlilov
İstanbul Universiteti
Xarici Ticarət



**40)** Qalib Quluzadə
Qazi Universiteti
İqtisadi İdari Bilimləri
Fakultəsi (İİBF)
İqtisad bölümü
Bankaçılıq



**41)** Cavid İbrahimov
Yıldız Texnik Universiteti
İqtisadi İdari Bilimləri
Fakultəsi (İİBF)
Bankaçılıq

## *10. Türkiyədə rəsmi ali qurumlarda çalışmış və çalışan Azərbaycanlı ədəbiyyatşünas alimlər*



**1)** Prof.Dr. Maarifə
Hacıyeva
Samsun
Universiteti



**2)** Prof.Dr. Şəhrəbanu
Allahverdiyeva
Adıyaman
Universiteti.



**3)** Prof.Dr.Kamil Vəli
Nərimanoğlu
İstanbul: Aydın
Universitet



**4)** Prof.Dr. Məmməd.
İsmayıl
Çanaqqala
"18 mart" Universiteti



**5)** Prof.Dr.Tofiq
Məlikov
İstanbul Universiteti.



**6)** Prof.Dr. İsmayıl
İsmayılov
Avrasiya Üniversitesi
Türk Dili və Ədəbiyyatı
Bölümü



**7)** Prof. Dr.Vilayət
Quliyev
Ərzurum.
Atatürk Universiteti.



**8)** Prof.Dr. Ələddin
Məmmədoğlu
Sakarya
Universiteti



**9)** Prof.Dr. Şurəddin
Məmmədli
Ardahan
Universiteti



**10)** Prof.Dr. Fizuli
Bayat
Qaziantep.
Universiteti



**11)** Prof.Dr. Qafar
Mehdiyev (Çakmaklı)
Erciyes Universitesi
Ədəbiyyat Fakultəsi
Erməni dili bölümü



**12**) Prof. Dr.Tamilla Sadatxan
qızı Əliyeva (Abbasxanlı)
Muş Alparslan Universiteti
Fən Ədəbiyat Fakultəsi



**13**) Prof.Dr. Əli Kafkasyalı
Atatürk Universiteti
Türk dili və Ədəbiyyatı
bölümü



**14**) Prof. Dr. Ramazan
Sirac oğlu Əhmədov
Karabük Universiteti
Əski Türk Ədəbiyyatı
bölümü



**15**) Prof. Dr. Əhməd
Nəhmədov
Adnan Menderes
Universiteti
Fən Ədəbiyyat Fakultəsi
Türk Dili və
Ədəbiyatı bölümü
Türkoloq



**16)** Prof.Dr. Elza Alışova Dəmirdağ
Girnə Amerikan Universiteti
QKTC Ədəbiyyatı bölümü



**17)** Prof.Dr. Məkbulə Səbziyeva
Anadolu Universiteti
Rus dili və Ədəbiyyatı



**18)** Prof..Dr. Vüsalə Musalı
Kastamonu Universiteti
Fən Ədəbiyyat Fakultəsi
Çağdaş Türk Ləhcələri və Ədəbiyyatları bölümü



**19)** Prof..Dr. Hüseynağa Rzayev
Süleyman Dəmirəl Universiteti
Fən Ədəbiyyat Fakultəsi
Batı Dilləri Ədəbiyyatı Bölümü, İngilis dili və Ədəbiyyatı



**20)** Prof..Dr. Xurşit İsayev
Qars- Qafqaz Universiteti
Rus dili və Ədəbiyyatı bölümü



**21)** Doç.Dr. Nailə Hacızadə
Səlcuk Universiteti
Rus dili və Ədəbiyyatı bölümü



**22)** Dos.Dr. Gülnarə Qocayeva-Məmmədova
Ardahan Universiteti
İnsani Bilimlər və Ədəbiyyat Fakultəsi



**23)** Dos. Dr. Pərvanə Bayram
Qazi Universiteti
Polatlı Fən Ədəbiyyat Fakultəsi



**24)** Dos.Dr. Vüqar Sultanzadə
Doğu Ağdəniz Universiteti
Türkcə Eytim bölüm başqanı



**25)** Dos.Dr. Cavid Əliyev
İstanbul “Yeni Yüz il” Universiteti
Fən Ədəbiyyat Fakultəsi
İngilis dili və Ədəbiyyatı



**26)** Dos.Dr. Firəngiz Paşayeva
Qafqaz Universiteti
Rus dili və ədəbiyyatı bölümü



**27)** Dos.Dr. Minarə Əliyeva
Uludağ Universiteti
Eytim Fakultəsi
Türkçə Eytim Bölümü



**28)** Dos.Dr.Tamilla Əliyeva
Ardahan Universiteti
Rus dili və Ədəbiyyatı bölümü



**29)** Dos. Dr. Nazim Muradov
KKTC Lefke Avropa Universiteti
Fən-Ədəbiyyat Fakultəsi
Türk dili və Ədəbiyyatı Bölümü



**30)** Dos. Dr. Esmira Mehdiyeva
Sivas Universiteti
Eytim Fakultəsi
Yabançı dillər bölümü
İngilis dili



**31)** Doç.Dr. Solmaz Süleymanova
Avrasiya Universiteti
Rusca tərcümanlıq bölüm başqanı



**32)** Dos. Dr. Vedi Aşkaroğlu
Ardahan Universiteti
Türk dili və Ədəbiyyatı bölümü



**33)** Dos. Dr. Jalə Babaşova
Kastamonu Universiteti
Fən Ədəbiyyat Fakultəsi
Çağdaş Türk Ləhcələri və Ədəbiyyatları bölümü



**34 )** Dos.Dr. Ellada Gərayzadə
Qafqaz Universiteti
Fən Ədəbiyyat
Azərbaycan Türkcəsi və Ədəbiyyatı bölümü



**35 )** Dos.Dr. Bəturə Məmmədova
Süleyman Dəmirəl Universiteti
Batı Dilləri və Ədəbiyyatı Bölümü, İngilis Dili



**36)** Doç.Dr. Leyla Hacızadə
Səlcuk Universiteti
Rus dili və Ədəbiyyatı



**37)** Dos.Dr. İlkin Quliyev
Qars- Qafqaz Universiteti
Azərbaycan Dili və Ədəbiyyatı bölümü



**38)** Yrd. Dos. Rövşən Əlizadə
İstanbul: Aydın Universiteti
Türk Dili və Ədəbiyyatı Bölümü



**39)** Yrd. Dos. Sevil Piriyeva
Ardahan Universiteti
Türk dili və Ədəbiyyatı bölümü



**40)** Yrd. Dos. Şəlalə Ramazanova
Ağrı İbrahim Çeçen Universiteti
Rus dili və Ədəbiyyatı bölümü



**41)** Dr. Sevinc Axundova
Hithit Universiteti
Türk Dili və Ədəbiyyatı bölümü



**42)** Çinarə Vəlizadə
Mərmərə Universiteti
Türk dili və Ədəbiyyatı bölümü



**43)** Sevinc Məhəmmədova
İstanbul Universiteti
Türk dili və
Ədəbiyyatı bölümü



**44)** Vəfa Qasımova
Mərmərə Universiteti
Sinif müəllimi
Bölümü



**45)** Ulduzə Qafarova
Biruni Universiteti
Xarici Dillər
Bölümü / İngilis



**46)** Məmməd İsayev
"9 Eylül Universiteti"
Sosial Elmlər İnstitutu
Dilçilik



**47)** Venera Mustafayeva
İstanbul Universiteti
Türk dili və
Ədəbiyyatı bölümü



**48 )** Taryel Babayev
Erciyes Universiteti
Erməni dili və
Ədəbiyyatı bölümü



**49)** Əsli Əliyeva
Erciyes Universiteti
Erməni dili və
Ədəbiyyatı bölümü



**50)** Afina Barmanbay Məmmədli
Qafqaz Universiteti
Fən Ədəbiyyat Fakultəsi



**51)** Məhsəti Xəlilova
İstanbul Universiteti
Ədəbiyyat Fakultəsi
Türk dili və
Ədəbiyyatı bölümü



**52)** Könül Quliyeva
Qafqaz Universiteti
Fən Ədəbiyyat Fakultəsi
Azərbaycan Türkcəsi
və Ədəbiyyatı bölümü



**53)** Fəxriyyə Kərim
İstanbul Universiteti
Ədəbiyyat Fakultəsi
Fars dili və
Ədəbiyyatı bölümü



**54)** Mehdi Gəncəli
Mərmərə Universiteti
Türkiyat Araşdırmaları
İnstitutu, Türk dili
və Ədəbiyyatı bölümü

**55)** Dos.Dr. Sədaqət Abbasova
Qafqaz Universiteti
Fən Ədəbiyyat Fakultəsi
İngilis dili və Ədəbiyyatı Bölümü

## *11. Türkiyədə çalışmış və çalışan azərbaycanlı bioloqşünas, botanikçi alimlər*



**1)** Prof.Dr.Səfər Mustafayev
Qəhrəmanmaraş Südcü İmam Universiteti
Fən Bilimləri İnstitutu
***Pambıqçılık***



**2)** Prof.Dr. Vaqif Hətəmov
Rize: Rəcəb Tayyib Ərdoğan Universiteti.
Fən Ədəbiyyat Fakultəsi,
Biologiya bölümü
***Botanikçi***



**3)** Prof. Dr. Ramazan Məmmədov
Dənizli Pamukkalə Universiteti
Fən-Ədəbiyyat Fakultəsi
Bioloji bölümü
***Botanikçi***



**4)** Prof.Dr. Tərlan Məmmədov
Ağdəniz Universiteti
Kənd təsərrüfatı Biotexnologiyası şöbəsi
***Bioloqşünas***



**5)** Prof.Dr. Aida Şahmurov
Okan Universiteti
Sağlıq Elmləri Fakultəsi
***Bioloqşünas***



**6)** Prof.Dr. Elşad Hüseynov
Qazi Universiteti
Fən Ədəbiyyat Fakultəsi
Bioloji, Mikoliji bölümü



**7)** Doç. Dr. Yusif Zeynalov
Iqdır Universiteti
Fən Fakultəsi
***Botanikçi***



**8)** Nüşabə Hümbətova
Hacəttəpə Universiteti
Ziraət Fakultəsi
Biologiya bölümü



**9)** Məhəmməd Əliyev
Ankara Universiteti



**10)** Esmira Mirzəyeva
Ağdəniz Universiteti
Kənd təsərrüfatı
Biologiyası



**11 )** Nilufər Nağızadə
Ağdəniz Universiteti
Kənd təsərrüfatı
biologiyası



**12)** Gülşən Məmmədova
Ağdəniz Universiteti
Kənd təsərrüfatı
biologiyası



**13)** Fəxriyyə Məmmədova
Ağdəniz Universiteti
Kənd təsərrüfatı
biologiyası



**14)** İlahə Musayeva
Ağdəniz Universiteti
Kənd təsərrüfatı
biologiyası



**15)** Nicat Cəbrayıloğlu
Ağdəniz Universiteti
Kənd təsərrüfatı
biologiyası

## *12. Azərbaycanın Türkiyədəki Böyük Eliçilikdə, Konsullukda çalışmış və çalışan Azərbaycanlı mütəxəssislər*



**1)** Xəzər İbrahim
Azərbaycanın
Ankara
Böyük Elçisi



**2)** Faiq Bağırov
Azərbaycanın
Ankara *(keçmiş)*
Böyük Elçisi



**3)** Zakit Həşimov
Azərbaycanın
Ankara *(keçmiş)*
Böyük Elçisi



**4)** Məmməd Əliyev
Azərbaycanın
Ankara*(keçmiş)*
Böyük Elçisi



**5)** Dos.Dr. Nəcibə
Nəsibova
Azərbaycanın Türkiyə
üzrə Təhsil müşaviri



**6)** Həsən Zeynalov
Azərbaycanın İstanbul
baş konsulu



**7)** Məsim Abdulla oğlu
Hacıyev
Azərbaycanın İstanbul
baş konsulu



**8)** Səyyad Aran
Azərbaycanın İstanbul
keçmiş baş konsulu



**9)** Abbas Abdulla
Azərbaycanın İstanbul
keçmiş baş konsulu (1992-1997)



**10)** İbrahim Nəbioğlu
Azərbaycanın İstanbul
keçmiş baş konsulu



**11)** Şair Tofiq Abdin
Azərbaycanın İstanbul
baş konsuluğunun
keçmiş əməkdaşı



**12)** Günay Əfəndiyeva
İstanbul baş konsulluğunun
mədəniyyət üzrə müşaviri



**13)** Şəmşir Şəmşirli
Azərbaycanın İstanbul baş
konsulluğunun müşaviri



**14)** Esmira Hüseynova
İstanbul baş konsulluğunun
mədəniyyət üzrə müşaviri



**15)** Ramil Qurbanov
Azərbaycanın
Ankara Böyük
Elçiliyinin müşaviri



**16)** Şöhrət Mustafayev
Azərbaycanın
Ankara
Böyük Elçiliyinin
birinci katibi



**17)** Fərid Musayev
Azərbaycanın Ankara
Böyük Elçiliyinin
ikinci katibi



**18)** Nazlı Hacızadə
Azərbaycanın Ankara
Böyük Elçiliyinin
mədəniyyət işləri üzrə
müşaviri



**19)** Elvin Hacızadə
Azərbaycanın Ankara
Böyük Elçiliyinin
Mətbuat işləri üzrə
müşaviri



**20)** Ayhan Süleymanlı
Azərbaycanın Qars
Baş konsulu



**21)** Nuru Quliyev
Azərbaycanın Qars
Baş konsulu



**22)** Behbud Gədəli
Azərbaycanın Iğdır
konsulu



**23)** Fariz Cəfərov
Azərbaycanın Qars
Baş konsulunun Iğdır
təmsilcis

## *13. Türk mədəniyyəti beynəlxalq təşkilatı Türksoyda Azərbaycanı təmsil edən rəsmi nümayəndələr*



**1).** Polad Bülbüloğlu
TÜRKSOY təşkilatının
baş katibi



**2)** Elçin Qafarlı
TÜRKSOY təşkilatının
Azərbaycan təmsilçisi

## *14. Tibb elmi sahəsində Türkiyədə xidmət etmiş və çalışan Azərbaycanlı həkimlər*



**1**) Prof. Dr. Cəbrayıl
Ələkbərov
"9 Eylül" Universiteti
Tibb Fakultəsi
Ortopedi və
Travmatologiya bölümü



**2**) Dr.Toğrul İsmayılov
Konya Hospital
Xəstəxanası
Ortopedi



**3**) Dr. Rövşən Heydərov
Loğman Həkim
Akay Xəstəxanası
Ortopedi



**4)** Prof.Dr. Afiq Hüseynov
İzmir: Eqe Universiteti
Tibb Fakultəsi.
Kök Hücrəsi Kafedrası



**5)** Dr. Taleh Nemətzadə
Tokat: Dövlət Xəstəxanası
Estetik və plastik cərrah



**6)** Dr. Araz Salmanov
İzmir: “9 Eylül”
Universiteti Plastik -
estetik çərrah



**7)** Prof.Dr. Şahin Əhmədov
Yaxın Doğu Universiteti
Anestezioloq, Akupunktor
Tədavisi üzrə həkim



**8)** Dr. Nurlana Əhmədzadə
Qaziantep Universiteti
Anistezioloq



**9)** Dr.Dostəli Əliyev
TOBB Xəstəxanası
Anestezioloq



**10)** Dr. Ruslan
Abdullayev
Mərmərə Universiteti
Tibb Fakultəsi
Xəstəxanası
Anestezioloq



**11)** Dr. Murad İsmayıloğlu
Şəfa Xəstəxanası
Anestezioloq



**12)** Dr. Rövşən
Nəsirov
Loğman Həkim
Akay xəstəxanası
Göz həkimi



**13)** Prof.Dr. İsmayıl Məmmədli
İstanbul Universiteti
Cərrahpaşa Tibb Fakultəsi
Radioloji üzrə mütəxəs



**14)** Dr. Rəsul Şərifov
Bəzmialəm Vakıf
Universiteti, Tibb Fakultəsi
Radioloji bölümü



**15)** Dr.Ruslan Əsədov
Mərmərə Universiteti
Tibb Fakultəsi
Radioloji bölümü



**16)** Prof.Dr. İlham Mərdanov



**17)** Dos. Dr. Novruz Başirov
Van: Yüzüncü il
Universiteti
Sağlıq Xidmətləri
Məslək Yüksək Okulu



**18)** Dr. Şikar
Hüseynov
Gülhanə Əsgəri
Tibb Akademiyası
Dermatoveneroloq



**19)** Dos.Dr. Rüstəm Məmmədov
Trakya Üniversitesi
Göğüs Cerrahiyəsi bölümü



**20)** Dos.Dr.Gülarə Hüseynova
Trakya Üniversitesi
Patoloji bölümü



**21)** Dr.Əkrəm Əsəd oğlu
Əzizadə
Ağdəniz Universiteti
Tibb Fakultəsi
Loqoped



**22)** Dr. Təranə
Bayramova
Ankara Başkənd Universiteti
Araşdırma xəstəxanası
Qinekoloq



**23)** Dr. Aysel Paşayeva
Hacəttəpə Universiteti
Tibb Fakultəsi
Qinekoloq



**24)** Dr. Aytən Səfərova
"9 Eylül Universiteti"
Qadın xəstəlikləri
Qinekoloq



**25)** Dr. Sədaqət Bayramova
Ankara Keçiörən Özəl
Tibb Mərkəzi
Qinekoloq



**26)** Dr. Vüqar Bayramov
Ankara Tibb Universiteti
Qinekoloq



**27)** Dr. Rəşad İsmayılzadə
İzmir Ege Universiteti
Tibb Fakultəsi
Qinekoloq



**28)** Dr. Aynurə Nəcəfəliyeva
Qazi Universiteti
Tibb Fakultəsi
Qinekoloq



**29)** Dr. Günel Yaqubova
Loğman Həkim
Van: Həyat Xəstəxanası
Qinekoloq



**30)** Dr. Müşviqə Həsənova
Acıbadəm
Atakənt Xəstəxanası
Qinekoloq



**31)** Dr. Zahid Məmmədov
Acıbadəm
Atakənt Xəstəxanası
Qinekoloq



**32)** Yrd.Dos.Dr. Oruc
Allahverdiyev
Van: Yüzüncü il
Universiteti
Əczaçılıq Fakultəsi



**33)** Yrd.Dos. Dr. Renad
Məmmədov
Ərzincan Universiteti
Tibb Fakultəsi
Farmakoloq



**34)** Leyla Paşayeva
Erciyes Universiteti
Əczaçılıq Fakultəsi



**35)** Azər Rza oğlu Abbasov
Əczaçılıq Fakultəsi



**36)** Dr. İlkin Babayev
İstanbul Universiteti,
Cərrahpaşa Tibb Fakultəsi
Əczaçılıq bölümü



**37)** Dr. Vasıf İsmayıl
İstanbul Universiteti
Cərrahpaşa Tibb Fakultəsi
Uroloq



**38)** Dr. Hikmət Cəbrayılov
Medikalpark xəstəxanası
Uroloq



**39)** Dr. Fərəc Əfəndiyev
Loğman Həkim
Akay Xəstəxanası
Uroloq



**40)** Dr. Kənan Talıblı
Qaziantep
Universiteti
Tibb Fakultəsi
Uroloq



**41)** Dr. İsmayıl Hüseynov
Harran Universiteti
Tibb Fakultəsi
Uroloq



**42)** Dr. Mirhkmət Qiyasov
Harran Universiteti
Tibb Fakultəsi
Uroloq



**43)** Dr.Adil Hüseynov
Ankara Universiteti
İbn Sina Xəstəxanası
Uroloq



**44)** Dr. Anar Məmmədov
Acıbadəm
Atakənt Xəstəxanası
Uroloq



**45)** Dr. Əsgər Qarayev
İstanbul Universiteti
Cərrahpaşa Tibb Fakultəsi
Uroloq



**46)** Dos.Dr.Faik Mustafaoğlu
Xatay şəhər xəstəxanası
Kardeoloq



**47)** Dr. Cəfər Abbasoğlu
İstanbul Universiteti,
Cərrahpaşa Tibb Fakultəsi
Qəlb və Damar Cərrahı



**48)** Dr. Nihat Əhmədli
Qaziantep Universiteti
Tibb Fakultəsi
Kardeoloq



**49)** Dr. Sürəyya Hüseynova
Çukurambar Xəstəxanası
Kardeoloq



**50)** Dr. Pərviz Cəfərov
Memorial Xidmət
Xəstəxanası
Kardeoloq



**51)** Dr. Nicat Baxşəliyev
Kardeoloq



**52)** Dr. Cəmilə Pirməmmədova
Özəl Bölgə Xəstəxanası
Kardeoloq



**53)** Dr. Əmir Ağayev
Özəl Bölgə Xəstəxanası
Qəlb damar cərrahı



**54)** Dr.Vüqar Əbdülkərimov
İstanbul Universiteti Cərrahpaşa
Tibb Fakultəsi
Reanimatoloq



**55)** Yrd. Doç.Dr. Emil Məmmədov
Yaxın Doğu Universiteti
Tibb fakultəsi
Pediatr cərrah



**56)** Dr. Mirzaman Hüseynov
İstanbul Universiteti
Cərrahpaşa Tibb Fakultəsi
Pediatr Cərrah



**57)** Dr. Vüsal Cəfərov
İstanbul Universiteti,
Cərrahpaşa Tibb Fakultəsi
Uşaq Cərrahiyyəsi və
Uşaq Urologiyası Kafedrası



**58)** Dr. Məhərrəm İmanlı
Özəl Ankara Ümid
Xəstəxanası
Pediatr



**59)** Dr. Lalə Nəzərova
Loğman Həkim
Ankara Sincan
Xəstəxanası
Pediatr



**60**) Dr. Gülsüm Mehdiyeva
Qırxlareli Universiteti
Sağlık yüksəkokulu
Cocuk Gəlişimi
bölümü



**61)** Dr. Ləman Məmmədova
Acıbadəm
Atakənt Xəstəxanası
Təcili yardım



**62)** Dr.Ülvi Gülməmmədov
Acıbadəm
Atakənt Xəstəxanası
Təcili yardım



**63)** Dr. Zaur İbrahimov
Ankara Xəstəxanası
Təcili Yardım



**64**) Dr. Aygün Cəfərova
Hacəttəpə Universiteti
Tibb fakultəsi
Daxili xəstəliklər
bölümü



**65**) Dr. Gündüz Abışıv
Hacəttəpə Universiteti
Daxili Xəstəliklər
bölümü
Bio / genetik



**66**) Dr.Sarvan Ağamuradov
Hacəttəpə Universiteti
Tibb Fakultəsi
Daxili Xəstəliklər
bölümü



**67**) Dr. Cavanşir Vahabov
Hacəttəpə Universiteti
Tibb fakultəsi
Daxili xəstəliklər



**68**) Dr. Təhməz Həziyev
Özəl Koru Ankara
Xəstəxanası
Terapiya



**69)** Dr. Cəbrayıl Cəbrayılov
Özəl Koru Ankara
Xəstəxanası
Terapiya



**70)** Dr. Tariyel Məmmədov
Çukurambar Xəstəxanası
Daxili Xəstəliklər
bölümü



**71)** Dr.Fuad Mustafayev
Loğman Həkim
Akay Xəstəxanası
Terapiya



**72)** Dr. Könül Zamanova
Maltəpə Universiteti
Tibb Fakultəsi Xəstəxanası
Daxili Xəstəliklər Bölümü



**73)** Dos. Dr. Kamran Ağayev
Hacəttəpə Universiteti
Tibb Fakultəsi, Biruni
Universiteti Xəstəxanası
Neoroloq



**74)** Sevil Hüseynova
Ankara Universiteti
Tibb fakultəsi
Neoroloji Bölümü



**75)** Dr. Gündüz Qədiristan
Dokuz Eylül Üniversitesi
Beyin və Sinir Cərrahisi



**76)** Dr. Nigar Əhmədova
Özəl Ege Xəstəxanası
Neoroloq



**77)** Dr. Elmir Xanməmmədov
Meqa Universiteti
Xəstəxanası
Neoroloq



**78)** Dr. Cavid Babayev
“9 Eylül Universiteti”
Tibb Fakultəsi
Noroloji bölümü



**79**) Dr.Günay Xəlilova
Ankara Universiteti
Tibb Fakultəsi
Qulaq, Burun, Boğaz



**80**) Dr. Nərgiz Hüseynova
Qaziantep Universiteti
Tibb Fakultəsi
Romotoloji bölüm
Xəstəlikləri bölümü



**81)** Dr. Araz Zeyniyev
Orta Doğu Texnik
Universiteti (ODTU)
Molekulyar



**82)** Dr. Elvin Ələsgərov
İstanbul Universiteti,
Cərrahpaşa Tibb Fakultəsi
Orintoloq



**83)** Dr. İlkin Quliyev
Hacəttəpə Universiteti,
Tibb Fakultəsi



**84)** Dr. Azər Məmmədov
İstanbul Universiteti,
Cərrahpaşa Tibb Fakultəsi



**85)** Dr. Xəyal Əhmədov
Maltəpə Universiteti
Tibb Fakultəsi Xəstəxanası
Fizioterapevt



**86)** Dr. Şəkər İsgəndərova
Qaziantep özəl
reabilitasion gurumu,
Fizioterapevt



**87)** Dr. Afət Məmmədova
Turk Qızılay
Trabzon bölgəsinin
Rize: Qan bağış mərkəzi



**88)** Dr. Fariz Səlimov
Çuxurova Universiteti
Diş Həkimliyi Fakultəsi



**89)** Dr. Pərvin Səfərəliyev
Çuxurova Universiteti
Diş Həkimliyi Fakultəsi



**90**) Dr. Arzu Tekin
Qaziantep Universiteti
Tibb Fakultəsi
Dişçilik bölümü



**91**) Dr. Fəqan Zakirov
İstanbul Universiteti,
Cərrahpaşa Tibb Fakultəsi
Psixiatrist



**92**) Dr. Eynar Hüseynov
Katib Çələbi Dövlət Universiteti
Ağız-Diş Sağlığı və Çənə-üz
Cərrahiyəsi kafedrasının rezidenti

**93**) Dr. Murad Şahmərdanov
"Ərzurumspor"un
həkimi

## *15. Türkiyədə jurnalistika sahəsində çalışa n mütəxəssislər*



**1)** Sabir Şahtaxtı
"Azərtac"ın xüsusi müxbiri



**2)** "Star" qəzetinin müxbiri
Sevil Nuriyeva



**3)** Dr. Nazilə Abbaslı
Yeniçağ TV və TMB TV



**4)** Şamil Ağacanov
Qazi Universiteti
Jurnalistika fakultəsi



**5)** Mahirə Sadıqova
(Əhmədova)
Mərmərə Universiteti
Jurnalistika fakultəsi



**6)** Nəsimi Paşayev
Ankara Universiteti
Rabitə Fakultəsi,
Radio – Televiziya,
Kino Bölümü



**7**) Rizvan Qənbərov
Ankara Universiteti
Jurnalistika fakultəsi



**8**) Aynur Talıbova
İstanbul Universiteti
Jurnalistika fakultəsi



**9**) Kəmalə Əliyeva
Mərmərə Universiteti
Jurnalistika fakultəsi



**10**) Vəfalı Ənsərov
Mərmərə Universiteti
Rabitə Fakultəsi
Jurnalistika bölümü



**11**) Tutu Səfiyeva
Ankara Universiteti
Rabitə Fakultəsi
Radio – Televiziya,
Kino Bölümü



**12**) Vüqar Novruzov
Gazi Universiteti
Rabitə Fakultəsi
Radio – Televiziya,
Kino Bölümü



**13**) Ziya Məmmədov
Qazi Universiteti
Tezniki-Tədris
Mətbəə
Bölümü

## *16. Türkiyənin TRT - qurumunda çalişan Azərbaycanlı sənət adamları*



**1)** Nailə İslamzadə
TRT "İşte Kadın" proqramının
müəllifi və aparıcısı



**2)** Şəhla Orucova (Bozqurd)
TRT AVAZ proqramının
aparıcısı

## *17.Türkiyədə çalışan Azərbaycanlı iş adamları*


**1)** Mübariz Məsimov (Qurbanoğlu)


**2)** Asif Qurban Azərbaycan Qardaşlıq və İşbirliyi Dərnəyinin Sədri


**3)** Rəna Cəfərova Qaziantep şəhəri


**4)** Turan Salmanlı Aksal Elektronik və İnformasiya Qurucu ortağı

Yuxarıda qeyd etdiyimiz Azərbaycan - Türkiyə mədəniyyətlərinin qarşılıqlı əlaqələrinin, bir-birilərinə olan təsirlərinin inkişafında, təkmilləşməsində xüsusi xidmətləri olmuş və yad etdiyimiz tanınmış şəxsiyyətlər kimi Prof. Dr. İlqar İmamverdiyevin də bu istiqamətdəki müsbət fəaliyyətini bir daha xatırlamaq istərdim. Belə ki, İlqar bəy çoxyönlü fəaliyyəti ilə həm Azərbaycanda, Azərbaycan Dövlət Musiqi Akademiyasında işlədiyi zamanlar, həm də xüsusilə 2000 - ci ildən bəri Türkiyədə müəllim olaraq çalışdığı illərdə, iki qardaş xalqın mədəni münasibətlərinin, bu sırada musiqi mədəniyyətlərinin bir - birlərinə daha da yaxınlaşmasında, təbliğində, tədrisində göstərdiyi uğurlu xidmətlərini də göz önünə gətirmək o qədər də çətin deyil. İlqar bəyin oxucularımızın himayəsinə verdiyi, yazmış olduğu giriş məqaləsindən də aydın olduğu kimi hələ gənclik illərində Türkiyəyə, Türk İnsanına, Türk musiqi mədəniyyətinə qəlbində oyanan və inkişaf edən duyğularını emosional bir dillə ifadə edə bilmişdir. Əslində, bu məcmuədə o bir daha qardaş xalqa öz dərin hörmətini, həmçinin bu, əslində iki qardaş xalqın bir-birilərinə olan mənəvi yaxınlığını, əbədi sevgisini bir növ əyani olaraq ifadə etməkdədir. Yazdığı "Azərbaycan - Türkiyə" şeiri isə demək olar ki, ağızdan - ağıza söylənməkdə, oxucular və dinləyicilər tərəfindən rəğbətlə qarşılanmaqdadır. Lakin müəllif bununla da yetinməyib həmin bu şeirə 300 sayda fərqli musiqilər də bəstələmişdir. Onlardan bir neçəsi isə dəfələrcə Türkiyənin fərqli konsert salonlarında *(Qaziantep, Akcaabat, Osmaniyə, Adıyaman,*

*Şanlıurfa və s.)* səsləndirilmiş, tamaşaçıların dərin rəğbətini qazanmışdır. Məcmuənin tanınmış şair, yazar, Aşıq Şəmşir Mədəniyyət Ocağı və İctimai Birliyinin sədri, Hörmətli el ağsaqqalı, nurlu İnsan, istedadlı şair-publisist **Qənbər Şəmşiroğlunun 85 illik yubileyinə** həsr edilməsi də təsadüfi deyil. Xalqımızın sevimli ustad aşığı Dədə Şəmşirin ləyaqətli oğlu olan Qəmbər bəyin, mədəniyyətimizin təbliğində, elmi baxımdan araşdırılmasında, Türkiyə ilə Azərbaycanın sosial - mədəni sahədə qarşılıqlı əlaqələrinin genişlənməsi yolunda yorulmaz və ardıcıl fəaliyyəti *(konfransların, simpoziumların, prezentasiyaların keçirilməsi, folklr və xalq yaradıcılığına aid monoqrafiyaların müzakirəsi, bir çox digər mədəni tədbirlərin keçirilməsi və s.)* oxucularımıza yaxşı tanışdır. Bu fəaliyyət həmçinin xalq yaradıcılığına, xüsusilə də ozan - aşıq yaradıcılığına aid monoqrafiyaların, kollektiv kitabların, məruzələrin yayımlanmasında müxtəlif elmi - təcrübi konfransların, simpoziumların, seminarların həyata keçirilməsində və s. də özünü ifadə etməkdədir. Bu xeyirxah məramlı müqəddəs yolda müdrük və ixtiyar yaşında belə Qənbər müəllim öz bilik və təcrübəsini geniş oxucu kütləsi və gənc mütəxəssislərlə paylaşmaqdan usanmır, onlara hər zaman dəstək verməyə və faydalı olmağa çalışır. Elə düşünürük ki, Sənətşünaslıq Doktoru, Professor İlqar Cəmiloğlu İmamverdiyevin, haqqında söz etdiyimiz ***"BİR MİLLƏT, İKİ DÖVLƏT, AZƏRBAYCAN - TÜRKİYƏ"*** adlı məcmuəsi, müdrik şəxsiyyət, Dədə Şəmşir ocağının etibarlı varisi, **Qənbər Şəmşir oğlu Qurbanovun** anadan olmasının **85 -** ci ildönümünə həsr edilmiş layiqli olduğu qədər də qiymətli bir töhvədir.

***BABƏK OSMAN OĞLU QURBANOV***

*Fəlsəfə elmləri doktoru, Professor.*
*keçmiş SSRİ və Azərbaycan Bəstəkarlar İttifaqı*
*İdarə heyyətinin üzvü,*

**15. 09 – 2018**

## ÜRƏYİMDƏ İKİ SÖZDÜR,
## AZƏRBAYCAN – TÜRKİYƏ

Hər bir İnsan dünyaya gəldiyi zaman gözünü açıb ətraf aləmə maraq dolu nəzər salır. Öncə müqəddəs, cəfakeş ananı, zəhmətkeş və qayğıkeş atanı, doğma bacısını, qardaşını görməyə alışır. Bir şey anlamasa da ətrafa məsum baxışlarla sadəcə nəzər salmaqla kifayətlənir. Bu yöndən yanaşdıqda şəhər mühitində dünyaya gələn körpələr 3–4 yaşlarında ətrafdakı İnsanlara maddım-maddım baxır, göyə ucalan bir-birindən fərqli ölçüdə olan çoxmərtəbəli binaları, küçələri, böyüklü-kiçikli əlvan rəngli avtomobilləri seyr edir, kənd mühitində doğulanlar isə uşaqlıq yaşlarında gen düzləri, dağıları, dərələri, sisi, dumanı, yağışı, dolunu, qarı, günəşin ziyasını, işıqlı aləmi, şər qarışdığını, axşamın olduğunu bəzən buludu, bəzən də aydın səmanı, ev heyvanlarını, bulağı, çayı, yaşıl qiyafətli ağacları, meyvəli bağları, meşələri, bir-birindən rayihəli gözəl rəngli çiçəkləri görüb heyrət edir. Zaman keçir, vaxt ötüşür ibtidai məktəbə daxil olur, müəllimlərin zəhməti sayəsində oxumağı, yazmağı öyrənir, ilkin bilgilərə yiyələnir. Beləcə həddi-büluq yaşına, gənclik dönəminə çatır, nəhayət orta məktəbi bitirir, nəzərdə tutduğu universitetlərdən birinə daxil ola bilmək arzusu ilə yaşayır.

Belə bir dövrü keçirən şəxslərdən biri də bu sətirlərin müəllifi olaraq mən də daxiləm. Hələ dünyanı tam dərk etmədiyimiz 60-cı illərin Sovet təhsil proqramına uyğun tərzdə, yalnız məktəbdə verilən dərsləri və tapşırıqları yerinə yetirməyə səy göstərməklə kifayətlənməli olurduq. Sən demə geniş bilgi qazanmaq, ətraflı məlumat almaq üçün dünyanın orta məktəb dərslərinə sığmayan, lakin öyrənilәsi vacib olan həcminə görə də çox zəngin biliklərlə dolu digər fənnləri, tamamilə fərqli və bir-birindən maraqlı elm sahələri də var imiş. Bu fənlərdən biri də Coğrafiya idi. Tədris zamanı məllimәmiz qlobusda dünya qitəsinin neçə hissədən ibarət olduğunu, şimal, cənub, şərq, qərb qütblərini əlindəki xüsusi çubuqla göstərib, ayrı-ayrı böyük ölkələri, onların paytaxtlarını,

inkişaf etmiş şəhərləri, eləcə də səhraları, dağları, okeanları, dənizləri, çayları bizə tanıtmağa çalışardı. Bu dərsimizdə əsasən Sovetlər İttifaqının ucsuz-bucaqsız geniş ərazisi daxilində Sibir, Orta Asiya, Zaqafqaziya, Baltikyanı ölkələr və s. barədə bilgilərə yiyələnirdik. Sovet siyasətinin əsas qayəsi kimi təhsil sistemimizdə də bizlərə xalqlar arasında sülh, dostluq, qardaşlıq, bərabərlik, azadlıq, əmək, səadət prinsipləri daha çox aşılanırdı. Hərdən də qoltuğunda xəritə ilə dərsə gələn müəlliməmiz onu divarda çalınmış mismara asaraq Amerika qitəsinin iki hissədən ibarət olduğunu *(Şimali Amerika, Cənubu Amerika)* onları bir-birindən ayıran Panama ölkəsini, əsasən də Amerika Birləşmiş Ştatlarının paytaxtı başda olmaqla, hətta digər böyük ölkələri, onların mərkəzi şəhərlərinin adlarını, dünyada uzunluğü ilə seçilən Missisipini, çox sulu olması ilə fərqlənən Amazon çaylarını, hətta kiçik əraziyə malik Kuba respublikası barədə geniş və ətraflı məlumatlarla biz şagirdlərə müfəssəl anladardı.

Lakin Sovetlər ərazisinə qonşu olan İran və Türkiyə haqda nədənsə çox səthi bilgi ala bilirdik. Bu bilgi İran ilə Türkiyə adında bir ölkənin də olmasından və coğrafi ərazisinin çox bəsit tərzdə, sadəcə xəritədə göstərilməsindən ibarət idi. Doğrusunu deməliyəm ki, bu hal mənim xəyalımda Türkiyənin Amerikadan da uzaq bir ölkə olduğu fikrini formalaşdırırdı. Qonşu sərhəddimizə yaxın bir ərazidə yerləşən bu ölkənin, nədən uzaq bir məmləkət olduğunu heç cürə anlaya bilmirdim. Moskvanın Mərkəzi Televiziyasının Amerika İnsanları barədə olan, əsasən də daha çox xoşagəlməz xəbərlərini bir neçə dəqiqə müddətində görüntülər şəklində yayınlatsalar da, təəssüf ki, Türkiyə adında bir məmləkət barədə nə mətbuat səhifələrində, nə də ki, televiziya və ya efir dalğalarından nəsə bir yeni məlumat öyrənə bilmək belə çox müşkül məsələ idi. Hətta Konservatoriyada oxuduğum illərdə 23–24 yaşlarında olarkən tələbə yoldaşlarım arasında Türkiyəni Türkmənistan kimi bilən də var idi. Bir gün həmin tələbə yoldaşım bizlərə dedi:

- *Mən Konservatoriyanı bitirən kimi, əsgərlik xidmətimi Türkiyədə edəcəm.*

Biz hamımız çaşbaş qaldıq. Etiraz etdik ki, hələ bu günə kimi Türkiyədə bir Azərbaycanlı oğlu əsgəri xidmətini yerinə yetirməmişdir. Bu sözümüzlə heç cür razılaşmayan tələbəlik yoldaşım inandırmağa çalışsa da, təbbi ki, biz onun fikrini heç cürə qəbul edə bilmirdik. Bir neçə gün keçdi. Nədənsə bu fikir hər gün məni narahat etməyə başlamışdı. Bu söhbət bir daha təkrar olunduğu növbəti günlərin birində həmin tələbə yoldaşım bu dəfə də öz sözünün üstündə israrla dayandı. Və bizi inandırmağa cəhd edirdi ki, xalası oğlu hal - hazırda Türkiyədə hərbi xidməti borcunu yerinə yetirir. Bu dəfə daha mən dözə bilməyib dedim:

- *Bəlkə sən Türkmənistan demək istəyirsən?*

Bu sözümün müqabilində tələbə yoldaşım halını pozmadan dedi:
- *Türkmənistan rus dilindədir.*

Bu acınacaqlı, təəssüf doğuran əhvalatı söyləməkdə məqsədimiz ondan ibarətdir ki, Türkiyə barədə məlumatımız yox dərəcəsində idi. Demək olar ki, bu müslüman ölkəsi haqqında heç nə bilmirdik.

1971-ci ildə Gəncə şəhər M.Qorki adına 1 nömrəli ümumtəhsil məktəbinin 9-cu sinifdə oxuduğum zaman institut ımtahanına yaxşı hazırlaşa bilməm üçün, ali təhsil müəssəsində çalışan *(S. Ağamalıoğlu adına Azərbaycan Kənd Təssərrüfatı İnstitutu)*, ömrünü müqəddəs müəllimlik peşəsi ilə bağlayan atam, Siyasi-iqtisad elmləri namizədi, dosent Cəmil İmamverdi oğlu Əkbər, riyaziyat fənnini mükəmməl öyrənə bilməyim üçün günlərin birində məni özü ilə birgə yaxın dostu, o dövürdə qədim Gəncədə ad qazanmış Həsən müəllimin iki otaqdan ibarət kiçik mənzilinə apardı. Qapını döydüyümüz zaman içəridən bir qədər uca səslə, həm də aramla bir şəxsin:

- *"Dicə, qapını aç"* deyə müraciətini dinlədik. *(Sən demə Həsən müəllim ömür-gün yoldaşı Xədicə xanımın adını qısaldılmış halda, "Dicə" deyə ona müraciət edərdi)*

Xədicə nənə qapını üzümüzə gülərüzlə açdı. Evə daxil olduq. *(İxtiyar sahibi, hündür boylu, dolu cüssəli, saçları dümağ qar kimi bəm-bəyaz və dağınıq*

*olan bu şəxsin riyaziyyatdan hazırladığı tələbələr arasında böyük qardaşım Müzadil İmamverdiyev də var idi. Bir müddət xüsusi dərs aldıqdan sonra Özbəkistanın Əndican şəhərində Tibb İnstitutuna uğurla imtahan verib qəbul olduğunun sevincini yaşadıq. O illərdə Həsən müəllimin adını da atam Cəmil Əkbərdən və ortancıl qardaşım Müzadildən çox eşitmişdim.)* Atam Cəmil Əkbər Həsən müəllimlə ilk dəfə məni tanış edib, riyaziyat fənnindən hazırlaşdırmağı ondan xahiş etdi. Həsən müəllim xatirini əziz sandığı dostunun sözünü yerə salmayıb mənə xüsusi dərs deməyə razılıq verdi. Bu minvalla mən bir müddət Həsən müəllimdən riyaziyyat fənnindən əlavə dərs almağa başladım. Həftədə iki gün evlərinə getdiyim zaman bu şəxsin bir çox xüsusiyyətlərini, özünəməxsus keyfiyyətlərini özüm üçün kəşf edirdim. Bir müddət keçdikdən sonra mənə məlum oldu ki, bu dünyagörmüş İnsan 3 müharibə iştirakçısıdılr. 1941–1945 İkinci Dünya Müharibəsi, Fin müharibəsi, Rus-Yapon müharibəsi əlilidir. Bədənində qəlpə gəzdirən bu şəxsin əslən Türk olduğunu dərs saatım bitdikdən sonra ud və mondolina adı ilə tanınan kiçik həcmli telli musiqi alətlərində həzin həzin çalıb ahəstə səslə oxuduqca anlamağa başladım. *(Bir müddət keçdikdən sonra, o dövrdə Azərbaycanda nadir tapılan Anadolu musiqisinin rəmzi kimi həmin ud alətini atam Cəmil Əkbərin ricası və Həsən müəllimin də razılığı ilə ondan almağa müvəffəq oldum. 1985-ci ildə Cəfər Cabbarlı adına Azərvbaycan kinostudiyasında xalq qəhrəmanı Qaçaq Nəbi haqda "Atları yəhərləyin" filmi çəkilərkən Emin Sabitoğlunun bəstələdiyi bir-neçə musiqisini həmin ud və saz aləti ilə "Mosfilm" studyasında lentə yazdırdıq)* "Üsgüdara gedər ikən" sözləri ilə başlayan lirik xarakterli qədim türk xalq mahnısını kövrək səslə oxuduqca heyrətimi gizlədə bilmirdim. Radiodan və televiziyadan heç bir vaxt eşitmədiyim bu qəribə duyğusal hisslər oyadan musiqinin ecazgar, qəlboxşayan minor sədalı ahəngi məni musiqinin ecazkar qanadlarında sadəcə eşitdiyim bir ölkəyə mənən çəkib - aparırdı. Görə bilmədiyim bu məmləkəti beləcə xəyalımda canlandırmağa çalışar, bu mənəvi görüşə ruhumla uçardım. Sonra da Mehmet Akif Ərsoyun (***Bax: Şəkil № 1***), Nazim Hikmətin (***Bax: Şəkil № 2***), Nəcib Fazil

Qısakürəyin (***Bax: Şəkil № 3***), və s. digər klassik türk poeziyasının azman



***Şəkil № 1. Mehmet Akif Ərsoy***



***Şəkil № 3. Nazim Hikmət***



***Şəkil № 3. Nəcib Fazil Qısakürək***

şairlərinin şeirlərini türk şivəsi ilə necə də gözəl ahənglə söyləməsi, Türk musiqisini - Türk şeiriyyətinin şəhdi - şəkəri ilə yekunlaşdırardı. Heyrət edib özüm-özümə deyərdim:

- *Görəsən Həsən müəllim bu şeiri necə əzəbərləyib? Türkcə xətasız söyləyə bilmək üçün bu poetik nümunələri nə cür hafizəsində saxlaya bilib?*

Növbəti dərslərimin birində onu da öyrəndim ki, Həsən müəllim Azərbaycanın məşhur olduğu qədər də talehsiz Türkcü şairi Hüseyn Cavid (***Bax: Şəkil № 4***), əfəndinin tələbəsi olmaq şərəfinə də malikdir.



***Şəkil № 4. Hüseyn Cavid***

Bəzən də Cavidin "İblis" faciəsindən bir parçanı ən çox da sevdiyi:

**"Kəssə hər kim tökülən qan izini,**

**Qurtaran dahi odur yer üzünü".**

elə əzəmətlə, elə pafosla əzbərdən deyərdi ki, heyrət etməmək mümkün deyildi.

1971-ci ildə Həsən müəllimdən təhsil aldığım müddətdə onun özünün məxsusi hazırlaığı tapşırıq dəftərlərinin olması diqqətimi daha çox çəkirdi. Sən demə Həsən müəllimin tədris metodunda hər şagirdin yaşına, qavrama

səviyyəsinə, qabiliyyət dərəcəsinə görə də 96 səhifədən ibarət xüsusi dəftərlərdə, asan yollarla həll edilmiş çox sayda misal və məsələlərdən ibarət nümunələr yer almaqdadır. Daha sonra öyrəndim ki, bu pedaqoq riyaziyyatı tez qavrayan şagirdər üçün bir başqa dəftər, gec qavrayan şagirdlər üçün isə ayrıca bir başqa dəftərlər hazırlamışdır. Yanına gələn müxtəlif səviyyəli şagirdlər geci-tezi riyaziyatı asan öyrənilmə metodunu əxz etdikcə bu fənni zaman içərisində çox sevər, tapşırıqları həll edə bilmək üçün daha çox həvəs göstərərdilər. Bu minvalla da nəzərdə tutduqları, arzu etdiklər müxtəlif institutlara qəbul ola bilirdilər.

Günlərin birində verdiyi bir tapşırığı həll etmək məqsədi ilə mən diqqətimi toplayıb məsələni çözmək üçün fikrimi cəmləşdirdiyim əsnada, Həsən müəllim Cavid Əfəndinin Filarmoniyada keçirilən son məhkəməsi barədə bir xatirəni atam Cəmil Əkbərə asta səslə nəql etməyə başladı. Qeyri-iradi olaraq fikrim tədricən yayındı və mənim diqqətim o söhbətə yönəldi. Yaddaşımda qalmış o hüzünlü hekayəti dəyərli oxucularımıza çatdırmağı Hüseyn Cavid ruhuna hörmət əlaməti olaraq qəbul edirəm. Həsən müəllim sözə belə başladı:
- *Cavid əfəndinin məhkəmə prosesində biz yeniyetmə idik, bir neçə yoldaşımla Filarmoniyanın kənarındakı münasib ağaclara dırmaşıb məhkəməni uzaqdan seyr edirdik. Bəzi üzdəniraq "yazıçı" və "şairlər" Cavid Əfəndinin yaradıcılığına tənqidi münsibət göstərir, onun əsərlərindən Pantürkist ab-havası gəldiyini həyasızcasına üzünə deyib, bəzi siyasi məsələlərdə isə nahaqdan şər-böhtan atırdılar. Bu haqsızlığa tab etməyən Hüseyn Cavidə nəhayət ki, məhkəmənin qərarı ilə son söz verildi. Cavid əfəndi onlara üzünü tutub qısa bir hekayət söyləməklə o üzdəniraq tənqidçilərə layiqli cavabını verəcəyini onların diqqətinə çatdırdı.*

Cavid əfəndi sözünə belə başladı:

- *Payız fəslinin bir günündə erməni cənnətə düşməyin yollarını öyrənmək məqsədi ilə erkəndən qalxıb keşişdən məsləhət almaq üçün kilsəyə gedir. Keşiş təşrif gətirmiş ermənin məramını bilib, mətləbini anladıqdan sonra deyir:*

- *Bir müslümana sən üç şey dedirdə bilsən cənnətin ortasındasan.*

Erməni tez-tələsik deyir:

- *Mən nə dedirtməliyəm?*

Keşiş bu sözün müqabilində fikrini belə izhar edir:

- *Əgər müsəlmana dedirdə bilsən ki, "Kilsə-məsciddən", "İncil-Qurandan", "Nırnı-halvadan yaxşıdır" o zaman özünü cənnətə girmiş bil.*

Erməni keşişə minnətdarlıq etdikdən sonra böyük inamla tələsik evinə dönür. Yaxınlaşanda təsadüfən evinin yaxınlığında fəqir bir müslümanın boş-bekar veyil-veyil gəzməsi diqqətini çəkir. Məsələnin nə yerdə olduğunu anlayıb ona yanaşır. İş axtardığını biləndə, erməni daxilən sevinir və özünü o yerə qoymayıb onu öz həyətinə aparır. Torpağı şumlamağın əvəzində zəhmət haqqı olaraq pul verəcəyini vəd edir. Kasıb sevincək, beli əlinə alıb ermənininin həyət yerini şər qarışana kimi belləyib bitirir. Erməni bu zəhmətin müqbilində razılaşdığı məzənnəni verib deyir:

- *Ay müslüman "qardaş" de ki, "kilsə məsciddən yaxşıdır.*

Müslüman heç gözləmədiyi, xəyalına belə gətirmədiyi bu qəribə sözdən ani olaraq diksinir. Bir qədər duruxub fikirə gedir. Ürəyində götür-qoy edib özü-özlüyündə belə deyir:

- *Hər ikisi də Allahın evidir. Noolar qoy deyim.* Və ermənininin istədiyi kimi o sözü təkrar edir.

Erməni sevincini biruzə verməyib müslümana belə deyir:

- *Nə vaxt pulun qurtarsa yenə gəl. Bəzi görüləsi işlərim yenə var.*

Müslüman pulu alıb sevinmiş halda özünü ailəsinə çatdırmağa tələsir.

Bu minvalla bir iki gün keçmiş, pulu xərcləyib qurtarandan sonra ermənininin sözü yadına düşür. Həmin evə yenə gəlir. Ev sahibi bu dəfə müslümana, ağacın diblərini belləyib yumşaltmağı və həyətdəki meyvə ağaclarının bəzi qurumuş budaqlarını budamağı əmr edir.

Müslüman bu dəfə də həvəslə ermənininin göstərişini yerinə yetirir. İşin bitdiyini görən erməni bu dəfə də əlindəki pulu müslümana göstərib belə deyir:

- *A müslüman "qardaş" de ki, "İncil Qurandan yaxşıdır".*

Müslüman bir qədər fikirə dalıb, xəyallar aləmində öz özünə deyir:

- *Hər ikisi Allahın kitabıdır. Noolar qoy deyim.* Və ermənінin arzuladığı sözü təkrar edir. Ev sahibi cənnətə yaxınlaşdığının sevincini yaşayaraq məzənnəni bir qədər artıqlaması ilə verib müslümanı razı salır.

Aradan daha bir müddət keçir. Müslüman pulu xərcləyib qurtardıqdan sonra yenə üz tutur erməni yaşadığı səmtə. Həyətə daxil olanda erməni həyət-bacada səliqə-sahman yaratmasını, süpürülüb yır-yığış etməsinə göstəriş verir. Müslüman tez-tələsik əlinə süpürgə alıb həyəti süpürür, zir-zibilləri daşıyıb bir yana yığıb, qısa bir vaxtda səliqə-sahman yaradır. İşini bitirdikdə pulunu almaq üçün ev sahibinə yaxınlaşır.

Erməni xahiş edir ki, *"bir qədər dincəl, çörək ye sonra gedərsən".* Müslüman tərəddüd etsədə çar-naçar evə daxil olur.

Erməni, avrada işarət edib yeməyi gətirməsinin göstərişini verir.

Müslüman ilk dəfə gördüyü yeməyin dadına baxarkən anlayır ki, bu yemək bir qəribədir. Sən demə bu yemək ermənilərin müqəddəs hesab etdikləri yağsız, şəkərsiz, duzsuz olan "nırnı" - dır. Aclığını basdırmaq üçün bir təhər də olsa yeməyə başlayır.

Erməni ürəyində sevinir ki, keşişin tövsiyə etdiyi üç mərhələnin sonuncusuna gəlib çatıb. Elə bu məqamı fürsət bilib fəqir müslümana yaxınlaşıb ona belə deyir:

- *A müslüman "qardaş" de ki, "Nırnı Halvadan yaxşıdır".*

Bu sözü eşidən müslüman daha dözə bilməyib əsəbi halda ayağa qalxıb belə cavab verir:

- *Ay erməni dedin ki, "Kilsə məsciddən yaxşıdır, mən razı oldum. İkinci dəfə dedin ki," İncil Qurandan yaxşıdır", mən ona da razı oldum. Amma Nırnı heç vaxt halvadan yaxşı ola bilməz"* – deyib, arxasına dönüb baxmadan oradan uzaqlaşır.

Bu hekayətdən sonra Cavid əfəndi üzünü o bədxah niyyətli, "yazıçılara" və "şairlərə" tutub belə dedi:

- *Mənim yazdığım əsərlər halva kimidir, həm yağı, həm şəkəri, həm duzu var. Sizin yazdığınız isə o "nırnı" kimidir, nə nə dadı var, tamı var.*

Bu son nitqindən sonra da Cavid əfəndini ömürlük gedər-gəlməzə, Sibirə sürgün edirlər.

Dərsə davam etdiyim günlərin birində Həsən müəllim yaralı bir Türk əsgəri ilə bağlı kövrək xatirəni mənə söylədiyini heç unuda bilmirəm. Həsən müəllim belə nəql edirdi:

- *Müharibənin qanlı-qadalı günlərindən birində bədənindən qəlpə yarası almış bir Türk əsgərini ağır vəziyyətdə hərbi qospitala çatdırırlar. Təcili əməliyyat olunmasına ehtiyac var idi. Yoxsa qan itirmədən dünyasını dəyişə bilərdi. Türk əsgərinin həyatı təhlükə qarşısında idi. Lakin narkoz tapılmaması onun həyatını xilas etməsinə mane olurdu. Bu vəziyyəti görən yaralı Türk əsgər ağır-ağır nəfəs ala-ala asta bir səslə cərrahdan xahiş edir ki, hər hansı bir musiqi alətində çalmağı bacaran bir kimsəni tapıb gətirsələr, narkoza ehtiyac qalmaz. Tibb bacısı bu sözü eşidib hərbi qospitalda müalicə alan döyüşçülərdən birinin əslən türk olduğunu və mondolinada çala bildiyini həkimə xəbər edir. Hərbi cərrahın əmrinə əsasən çox sayda yaralı xəstələr arasında həmin şəxs axtarılıb tapılır və tezliklə musiqi aləti ilə birgə həkimin hüzuruna gətirilir. Həmin şəxs əməliyyat masasına yaxınlaşıb Türk əsgərini bu halda görəndə vəziyyətin çox ağır olduğunu anlayır. Cərrahi əməliyyat masasında ağır-ağır nəfəs alıb əlindəki mondolinaya heyrətlər içində baxıb acizanə bir səslə Anadoluda məşhur olan bir çox xalq musiqilərini çalmağını-oxumağını ondan xahiş edir.*

*Musiqiçi əsgər pəjmürdə halda ölüm-qalım savaşı verən yaralı Türkün xahişini nəzərə alıb əməliyyat masasının kənarına yaxın bir yerdə əyləşib öncə "Üsgüdara gedər ikən" sözləri ilə başlayan "Katibim" adlı qədim xalq mahnısını çalıb ahəstə səslə Türk şivəsi ilə oxumağa başladığı zaman cərrah-*

*həkim də xəstəsinin vicuduna saplanmış qəlpəsini narkoz olmadan neştərlə kəsib çıxartmağa çalışır:*

*"Üsküdara gider iken aldı da bir yağmur,*
*Katibimin setresi uzun eteği çamur.*
*Katip uykudan uyanmış gözleri mahmur,*
*Katip benim ben katibin el ne karışır.*
*Katibime kolalı da gömlek ne güzel yaraşır.*

*Üsküdara gider iken bir mendil buldum,*
*Mendilimin içine de lokum doldurdum.*
*Katibimi arar iken yanımda buldum,*
*Katip benim ben katibin el ne karışır*
*Katibime kolalı da gömlek ne güzel yaraşır"*

*"Katibim" mahnısını ifa edib bitirdikdən sonra digər bir havaya keçir. Yəməndə vuruşub şəhid olan qeyrətli, məğrur türk əsgərlərinin əzəz xatirəsinə yaranmış "Burası Muşdur" sözləriylə başlayan Yəmən Türküsü adlı "ağını" həzin-həzin çalıb bu sözlərlə ifa edir:*

*"Havada bulut yok bu ne dumandır*
*Mahlede ölen yok bu ne figandır*
*Şu Yemen elleri ne de yamandır*
*Ah o Yemen'dir gülü çemendir*
*Giden gelmiyor acep nedendir*
*Burası Muş'tur yolu yokuştur*
*Giden gelmiyor acep nedendir*

*Kışlanın önünde çalınır sazlar*
*Ayağım yalınayak yüreğim sızlar*
*Yemen'e gidene ağlıyor kızlar*
*Ah o Yemen'dir gülü çemendir*
*Giden gelmiyor acep nedendir.*
*Burası Muş'tur yolu yokuştur*
*Giden gelmiyor acep ne iştir"*

